# Azərbaycan-Belarus sənədləri imzalanıb



**Azərbaycan Milli Elmlər Akademiyası,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu**
**ilə**
**Belarus Milli Elmlər Akademiyası,**
**Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu**
**arasında əməkdaşlıq haqqında**

**S A Z İ Ş**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Belarus Milli Elmlər Akademiyası, Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu,

iki dövlətin xalqları arasında hərtərəfli münasibətləri möhkəmləndirmək və ənənəvi dostluq əlaqələrini inkişaf etdirmək istəklərini rəhbər tutaraq,

Azərbaycan Respublikasında və Belarus Respublikasında elmi inkişaf etdirmək maraqlarından şıxış edərək,

Tərəflərin birgə elmi, elmi-texniki proqram və layihələrinin həyata keçirilməsinə qarşılıqlı marağını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Bu Sazişin predmeti hər iki Tərəf üçün maraq kəsb edən sahələrdə birgə elmi tədqiqatların dəstəklənməsi məqsədi ilə Azərbaycan Respublikasının və Belarus Respublikasının elmi kollektivləri və tədqiqatçıları arasında əməkdaşlığın inkişaf etdirilməsinə köməkliyin göstərilməsidir.

**Maddə 2**

2.1. Tərəflər əməkdaşlığı bu Saziş çərçivəsində aşağıda göstərilən formada həyata keçirirlər:

Xüsusi müxbirimiz xəbər verir ki, geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.
Azərbaycan Respublikasının Prezidenti ilə Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.
“Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq” haqqında müqaviləni Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko imzaladılar.
“Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında məcburi dövlət sosial sığortası sahəsində əməkdaşlıq” haqqında Protokolu Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Belarus Respublikasının əmək və sosial müdafiə naziri Mariyanna Şotkina imzaladılar.
“Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası, Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında” Sazişi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və Belarus Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin sədri Vladimir Qusakov imzaladılar.

Sonra mükafatlandırma mərasimi oldu. Belarus Prezidenti Aleksandr Lukaşenko ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin möhkəmlənməsinə və inkişafına verdikləri töhfəyə görə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubova və “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyevə Belarus Respublikasının “Şərəf” ordenini təqdim etdi.

*Mənbə: http://azertag.az/xeber/906344*

*Elmin İnkişafı Fondunun icraçı direksiyası*
*Bakı ş.*
*28 noyabr 2015*